МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

На правах рукописи

ФАРИДА МАШИ гызы ГУСЕЙНОВА

# ПУТИ И СПОСОБЫ ФОРМИРОВАНИЯ КОММУНИКАТИВНЫХ НАВЫКОВ В АНГЛИЙСКОМ ЯЗЫКЕ УЧАЩИХСЯ V-IX КЛАССОВ СРЕДНИХ ШКОЛ

5801.01 – Теория и методика обучения и воспитания
(методика преподавания английского языка)

АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени
доктора философии по педагогике

Баку – 2017

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

Əlyazması hüququnda

FƏRİDƏ MƏŞİ qızı HÜSEYNOVA

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN V-IX SİNİFLƏRİNDƏ ŞAGİRDLƏRİN İNGİLİS DİLİ ÜZRƏ KOMMUNİKATİV BACARIQLARININ FORMALAŞDIRILMASININ İMKAN VƏ YOLLARI

5801.01 – Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası
(ingilis dilinin tədrisi metodikası)

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2017

İş Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Ümumi təhsilin və məktəbdənkənar təhsilin kurikulumu şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: Pedaqogika üzrə elmlər doktoru, professor
Dilarə Əbdül qızı İsmayılova

Rəsmi opponentlər: Pedaqogika üzrə elmlər doktoru, professor
Gülnar Cabbar qızı Hüseynzadə

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Münəvvər Firudin qızı Məmmədova

Aparıcı təşkilat: Azərbaycan Dövlət Pedaqoji Universitetinin İngilis dilinin tədrisi və metodikası kafedrası

Müdafiə___________________ 2017-cı il saat______-da Azərbaycan Dillər Universiteti nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.081 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat ___________________________2017-ci ildə göndərilmişdir.

D.02.081 Dissertasiya Şurasının elmi katibi,
filologiya üzrə fəlsəfə doktoru, dosent Həmidə Əhməd qızı Əliyeva

Çapa imzalanmışdır 30.09.2017.
Kağız formatı 60x84 1/16. Tiraj 100.

«Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsinin mətbəəsində çap olunmuşdur.

Bakı, AZ 1052, Fətəli xan Xoyski küç., 149
Tel.:(+994 12) 567-81-28/29;
E-mail: tahsil_az@yahoo.com

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

***Mövzunun aktuallığı.*** Dissertasiya işi V-IX siniflər üzrə ingilis dilinin tədrisində kommunikativ bacarıqların, şifahi nitq vərdişlərinin qazanılmasında səmərəli yolların araşdırılmasına həsr edilmişdir.

Aparılan araşdırmalardan belə qərara gəlmək olar ki, bir çox dilçi alimlər, mütəxəssislər və orta ümumtəhsil məktəbi müəllimləri ingilis dilinin kommunikativ yanaşmada tədrisinə dair müxtəlif fikir və mülahizələr söyləmişlər. İnkişaf etmiş ölkələrdə ingilis dilinin xarici dil kimi tədrisi təcrübəsindən bəlli olur ki, şagirdlərin ingilis dilində kommunikativ bacarıqlarının formalaşması məsələsi zəngin məzmuna malik sistemli bir prosesdir. Bu problemin tərkib hissələri kimi öncə kommunikativ vərdişlərin sistemli formalaşması yollarının aşkarlanması, metodiki cəhətdən nitq vərdişlərinin düzgün əldə olunması yollarının öyrənilməsi və onların tədris proqramlarında öz əksini tapması səciyyələnir. Dissertasiya işinin aktuallığı bir də onunla səciyyələnir ki, orta ümumtəhsil məktəblərində ingilis dilinin tədrisi prosesində kommunikativ bacarıqların formalaşması üzrə xarici dil fənninin təhsil proqramı (kurikulumu) və dərsliklərində müəyyən mürəkkəb məsələlər mövcuddur. Bu baxımdan ingilis dilinin tədrisində kommunikativ təlimin nəzəri və psixoloji əsaslarının öyrənilməsində, qarşıya çıxan problemlər və onların həllində innovativ metodlarından düzgün istifadə qaydaları aktuallıq kəsb edir.

Xarici dildə kommunikativ bacarıqların formalaşmasına yönəlmiş çoxlu tədqiqat işləri ünsiyyətdə dilin funksional xarakterini izah edərək onun kommunikasiyada səlis, rabitəli şəkildə işlənməsini və bu sahədə metodiki çatışmazlıqların baş verməsini qeyd edir. Aydındır ki, ingilis dilində öyrənilən sözlərdən nitq prosesində məqsədəuyğun istifadə etmək, fikirləri izah və şərh etmək, yaradıcı şəkildə ifadə etmək bacarığına yiyələnmədən, həmin dildə adekvat danışıq vərdişlərinə yiyələnmək qeyri-mümkündür. Digər tərəfdən, bir qayda olaraq, sözügedən problemin həlli zamanı tədqiqatçılar ünsiyyətdə şagird təfəkkürünün, psixologiyasının və fizionomiyasının düzgün formalaşmasına təsir edən elementləri də dəqiqləşdirə bilməmişlər. Xarici dildə ünsiyyətin şagird psixologiyasına, təfəkkürünə, fiziki inkişafına təsiri və əhəmiyyəti geniş verilməmişdir.

***Tədqiqatın işlənmə səviyyəsi.*** Tədqiqat işi ilə bağlı müxtəlif səviyyələrdə araşdırmalar aparılmış, bir sıra dissertasiyalar yazılmış, kommunikativ vərdişlərin yeni tədris proqramları və fənn standartlarının tələbləri baxımından formalaşması yolları az tədqiqat obyektinə çevrilmiş və kommunikativ təlimin tədrisi metodikasına az diqqət yetirilmişdir.

***Tədqiqatın obyektini*** orta ümumtəhsil məktəblərinin V-IX şagirdlərinin ingilis dilində kommunikativ bacarıqlarının formalaşdırılmasının imkan və yolları, yeni metodoloji xüsusiyyətləri təşkil edir.

***Tədqiqatın predmetini*** orta ümumtəhsil səviyyəsində şagirdlərin kommunikativ bacarıqlarının formalaşmasında pedaqoji-psixoloji yanaşmaların tədqiq edilməsi, didaktik tələblərin, proqram və dərsliklərin araşdırılması, məktəb təcrübəsinin öyrənilməsi, qarşıya çıxan problemlər, xarici dilin kommunikativ tədrisi metodikası, səmərəli üsullar və çalışmaların sistemləşdirilməsi, tədqiqat üzrə aparılan eksperimentin təşkili, aparılması və nəticələri təşkil edir.

***Tədqiqatın məqsədi*** orta ümumtəhsil məktəblərində ingilis dilinin kommunikativ şəkildə tədrisi üzrə işin sistemini yaratmaq və onun tətbiqi üzrə metodiki tövsiyənin və səmərəli təlim üsullarının işlənib hazırlanmasından ibarətdir. Tədqiqat aşağıdakı ***vəzifələri*** müəyyənləşdirir:

1. İngilis dilinin tədrisində kommunikativ yanaşmanın nəzəri-psixoloji xüsusiyyətlərini müəyyənləşdirmək;
2. Problem baxımından elmi-pedaqoji ədəbiyyatın, proqram və dərsliklərin təhlilini aparmaq;
3. Məktəb təcrübəsi əsasında V-IX siniflərdə şagirdlərin qarşılaşdığı çətinlikləri və aşkar olunan tipik səhvləri müəyyənləşdirmək və kommunikativ bacarıqların formalaşdırılmasının səmərəli yollarını aşkara çıxarmaq;
4. V-IX siniflərdə kommunikativ bacarıqların mənimsəmə səviyyəsini, metodik iş üsulları və texnologiyalar sisteminin səmərəliliyini yoxlamaq üçün eksperimental tədrisi həyata keçirmək;
5. İngilis dilində müəllim və şagirdlərə kommunikativ bacarıqların formalaşdırılmasını elmi cəhətdən əsaslandırmaqla metodiki istiqamət vermək.

***Tədqiqatın metodoloji əsasını*** pedaqoji-elmi, metodiki ədəbiyyatların araşdırılması, tarixi-müqayisəli təhlil, problemin öyrənilməsi məqsədilə pedaqoji müşahidə, müsahibə, anket sorğusunun keçirilməsi, tədqiqatın gedişini yoxlayan funksional tətbiq, keyfiyyət və kəmiyyət dəyişiklikləri üzrə analiz, təhlil, riyazi-statistik hesablama və ümumiləşdirmə metodları təşkil edir.

***Tədqiqatın fərziyyəsi.*** Kommunikativ bacarıqların formalaşması təlim prosesində aşağıdakı şərtlər yerinə yetirilsin:

1. Təlim prosesi xarici dilin V-IX sinif üzrə təlim nəticələri və standartların tələbinə uyğun məktəb xarici dil proqramı (kurikulum) ilə təmin edilərsə;

2. Kommunikativ təlimdə tədrisin psixoloji amilləri nəzərə alınarsa;

3. Təlim prosesində fəal təlimin tələblərinə uyğun müəllim və şagirdlərin rolunun düzgün müəyyən edilməsi baş verərsə;

4. Təlim strategiyaları, təlimin təşkili prinsipləri və metodoloji aspektləri düzgün tətbiq olunarsa;

5. Təlimdə səmərəli kommunikativ fəaliyyətlər və çalışmalar məqsədyönlü, sistemli, mərhələli şəkildə düzgün istifadə olunarsa, o zaman səmərə verə bilər.

***Tədqiqatın elmi yeniliyi*** orta ümumtəhsil səviyyəsində ingilis dilinin kommunikasiyada sistemli şəkildə formalaşdırılmasının araşdırılması ilə şərtlənir. Digər elmi yeniliyinin əhəmiyyəti kommunikativ bacarıqların formalaşmasının mahiyyəti, məzmunu, psixoloji və metodoloji xüsusiyyətlərinin tədqiq olunması və bu baxımdan yeni tədris proqramının və dərsliklərin rolu, ünsiyyət bacarıqlarının komponentləri göstərilir, kommunikativ fəaliyyətin sistemlilik, tamlıq, standartlara uyğun qazanılması metodologiyası təsvir edilir, dil bacarıqları üzrə metod və üsullar təsnif edilir və ünsiyyət modelinin yeni formaları təklif olunur.

***Tədqiqatın nəzəri əhəmiyyəti.*** Tədqiqatın nəzəri əhəmiyyətini şagirdlərin ingilis dilində ünsiyyət vərdişlərinin formalaşdırılması xüsusiyyətlərini təmin edən faktorlardan biri kimi dil bacarıqları və funksiyalarının mövcud xarici dil fənn proqramının (kurikulum) tələblərinə uyğun öyrənilməsi təşkil edir. İrəli sürülən yeni elmi-nəzəri fikirlər ingilis dilinin tədrisi metodikasında kommunikativ bacarıqların formalaşmasının təhsilalanların maraqlarına uyğunluğunu və sistemliliyini təmin edir.

***Tədqiqatın praktik əhəmiyyəti.*** Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, tədqiqatda öz əksini tapmış praktik işlər, yeni metodiki istiqamətlər V-IX siniflərdə kommunikativ fəaliyyətlərin məqsədyönlü şəkildə təşkilinə imkan verəcəkdir. Tədqiqat işinin nəticələrindən sonda ingilis dili müəllimləri, şagirdlər və xarici dildə digər təhsilalanlar faydalana biləcək və gələcək fəaliyyətlərində uğurla tətbiq edəcəklər.

***Müdafiəyə təqdim olunan başlıca müddəalar:***

1. İngilis dilinin ənənəvi tədris proqramı kommunikasiyanın qazanılmasını tam təmin etmir və müasir tələblərə uyğun gəlmir.

2. İngilis dilinin kommunikativ yanaşmanın nəzəri-psixoloji məsələləri araşdırılmalı və bu təlimin sistemli tədrisi təşkil edilməlidir.

3. İngilis dilində kommunikasiyanın məqsədləri üçün dilin quruluşu, forma, məna və işlənməsinin V-IX siniflər üzrə kommunikativ tədrisi ümumtəhsil səviyyəsində fənnin proqramının (kurikulum) məzmununda nəzərə alınmalıdır.

4. İngilis dili dərslərinin kommunikativ yanaşmada tədrisi metodikası yeni üsullarla təkmilləşdirilməli, təlimdə texnoloji vasitələrdən istifadə və tənqidi təfəkkür bacarıqlarını formalaşdıran yeni üsullar müəyyən edilməlidir.

5. Təlimdə V-IX sinif şagirdlərinin ünsiyyət bacarıqlarını formalaşdıran səmərəli metod və üsullar tətbiq edilməli və şagirdlərin ünsiyyət bacarıqları düzgün meyarlarla dəyərləndirilməlidir.

6. İngilis dili dərslərində və dərsdənkənar mühitdə istifadə olunan kommunikativ fəaliyyətlər xarici dil təhsil proqramına (kurikulum) daxil edilməli, onun tələblərinə uyğun sistemləşdirilməli və tədris prosesində tətbiq olunmalıdır.

***Tədqiqatın aprobasiyası.*** Tədqiqat işinin nəticələri ilə bağlı Azərbaycan Respublikasının Təhsil İnstitutunun ümumi təhsilin və məktəbdənkənar təhsilin kurikulumu şöbəsində, Azərbaycan Dillər Universitetinin Linqvodidaktika kafedrasının iclaslarında müzakirələr keçirilmişdir. Azərbaycan Respublikası Təhsil İnstitutunun, Azərbaycan Dillər Universitetinin təşkil etdikləri Respublika və beynəlxalq konfranslarda, Amerika Məzunlar Cəmiyyətinin Beynəlxalq simpoziumlarında məruzələr edilmişdir. Dilçi alimlərlə – Maykl Appl (Michael Apple), Zoltan Dörneyi ilə görüşlər keçirilmiş, maraqlı fikirlər toplanmışdır. Dissertasiya işi ilə əlaqədar Azərbaycanda 9 və xarici ölkələrdə beynəlxalq nüfuzlu jurnallarda 2 elmi məqalə, 20 beynəlxalq və yerli konfranslarda tezis və məqalələr, 3 dərslik və 9 metodik vəsait çap olunmuşdur.

***Dissertasiyanın quruluşu.*** Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

"Giriş" hissədə mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekt və predmeti, məqsəd və vəzifələri, müdafiəyə təqdim edilən əsas müddəalar, işin nəzəri və praktik əhəmiyyəti, elmi yeniliyi müəyyənləşdirilir, dissertasiyanın aprobasiyası və quruluşu haqqında məlumat verilir.

Dissertasiyanın I fəsli *"İngilis dilinin tədrisində kommunikativ bacarıqların formalaşdırılmasının nəzəri əsasları və tədrisi vəziyyəti"* adlanır. Bu fəsil dörd yarımfəsildən ibarətdir.

Birinci yarımfəsil *"İngilis dilinin tədrisində kommunikativ yanaşmanın mahiyyəti və psixoloji əsasları"* adlanır və burada kommunikativ yanaşmanın mahiyyəti, məzmunu nəzəri və psixoloji cəhətdən təhlil edilir.

Qeyd olunmuşdur ki, kommunikativ yanaşmanı ilk dəfə Amerika dilçisi, filosof, məntiq üzrə alim Avram Noam Xomski (A.N.Chomsky)[1] "Sintaktik nəzəriyyənin aspektləri" adlı əsərində işlədərək, onun leksik-semantik mənasını açıqlamış, sonralar "kommunikativ yanaşma" anlayışı "kompetensiya" sintaqması kimi qəbul edilmiş və monoloji nitq zamanı dildə linqvistik biliklərin real həyat situasiyalarında aktual şəkildə nümayişi kimi izah edilmişdir. Bu nəzəriyyədə A.N.Xomski ingilis dilinin kommunikativ yanaşmada tədrisini dilin linqvistik prinsiplərə xidmət etməsi kimi qeyd edirdi. Onun fikrincə, şagirdlərin səlis nitqi yalnız dilin linqvistik qaydalarına tabe olması üzrə öyrənilməlidir. Dilçilik sahəsində "kommunikativ kompetensiya" anlayışını müxtəlif aspektlərdən araşdıran ədəbiyyatlarla tanışlıq bir daha onu deməyə imkan verir ki, bu anlayış ilk öncə linqvistik baxımdan bir problem kimi müxtəlif prizmalardan təhlil edilmiş və onun tədrisi metodikasının uyğun cəhətləri açıqlanmışdır.

Buna alternativ olaraq dilçilikdə "kommunikasiyanın atası" kimi tanınan D.Haymesin (Hymes, D.H.) elmi ixtirası olan "kompetensiyaların etnoqrafiyası"[2] adlı yeni anlayışı dilçilik elmində ünsiyyətin qazanılmasında yeniliklər etdi.

D.H.Haymes qeyd edirdi ki, kommunikasiya təkcə qrammatik dil qaydalarının örənilməsi deyil, eyni zamanda onların müxtəlif situasiyalarda tətbiqi və sosial-kultural bacarıqların qazanılması üçün də çox vacibdir.

---

[1]Chomsky N. Aspects of the Theory of Syntax. Cambridge, MA: MIT Press, 1965, p. 128

[2]Hymes D.H. On communicative competence. In J.B. Pride and J. Holmes, eds. Sociolinguistics. Harmondsworth, England: Penguin Books,1972, p.269 - 293

Tədqiqatçı alim D.İsmayılova[1] öz əsərlərində onun formalaşması imkanlarını detalları ilə izah etmiş, ingilis dilinin kontekstual təbiətini açaraq onun ünsiyyətdə qazanılmasına önəm vermişdir.

Psixoloji yanaşma kimi xarici dilin kommunikativ tədrisi audiolinqvistik yanaşmadan sonra fərqli bir oriyentasiya yaratdı. A.N.Xomskinin davamçıları Y.F.Tarasov[2] və A.Leontyev dilin ünsiyyətdə qazanılmasının nəzəri əsaslarını assosiativ psixolinqvistika nəzəriyyəsi ilə təklif edirdilər.

Bu yanaşmada dilin qazanılması prosesində idraki fəaliyyətin inkişafı eyni zamanda bir çox psixoloji amillərin təsirləri ilə izah olunur. Kommunikasiyanın qurulmasında daha çox şagirdin maraq və ehtiyaclarını nəzərə alan bu yanaşma dilin linqvistik nəzəriyyəsində psixoloji prinsiplərin yenilənməsi ilə müşahidə olunmalıdır. Yəni yeni nəzəri fikirlər şagirdlərin psixoloji hazırlığını təmin etməli, yalnız təlim mühitində deyil, kommunikasiyanın funksional təbiətində və şagird təfəkküründə yenilik etməli idi.

Şagirdlərin ingilis dilində sərbəst ünsiyyət qurması üçün onların psixoloji hazırlığı çox önəmlidir: məlumatı, mesajları qəbul etməyə və açılmasına (encoding-decoding) motivə etmək və məlumatın ötürülməsində səs tonu, bədən dilinin olması, fiziki, sosial-psixoloji, mədəni kontekstlərin təminatı daxildir. Səhvlərin düzəlişində utancaqlıq, qorxu hissini aradan götürmə və effektiv dinləmə və fikirlərin dəyərləndirilməsi nəzərdə tutulur.[3]

İkinci yarımfəsil *"Problemin elmi-metodik ədəbiyyatda qoyuluşu"* adlanır və tədqiqatçılar ədəbiyyatlarda qarşıya çıxan əsas problemi kommunikasiyanın vacib komponentlərinin öyrənilməsində görmüşlər. Burada dilin strukturu, forması, funksiyasının mənanın işlənməsinə istiqamətlənməsi və bu baxımdan onların bir-birinə bağlılığının eyni dərəcədə əsas götürülməsi vacib hesab edilir.[4] Buna əlavə olaraq bəzi ədəbiyyatlar bu bacarıqların formalaşmasında dildə leksik vahidlərin, lüğətin inkişafını və dil qaydalarının praktikada tətbiqini, digərləri daha çox dinləyib-anlama və danışıq fəaliyyətlərinin, bəziləri oxu və yazı fəaliyyətlərinin tətbiq edilməsi,

---

[1]Исмаилова Д.А.Общетеоретические аспекты культуроведческого общения иноязычной коммуникативной практики учащихся // Иностранные языки в Азербайджане, 2007, № 1, с. 55

[2]Тарасова Е.П. Методика обучения иноязычной лексике на начальном этапе языкового вуза: Автореф. дис. ... канд. филол. наук. Минск, 1975, с. 16

[3]ConamaJ.B., CarsonL., GrehanC. Psychological and Social aspects of Language, 2013, p. 76

[4]Richards J.C., & Rodgers T.S. Approaches and Methods in Language Teaching (2nd Edition ed.). New York: Cambridge University Press,2001, p. 71-244

autentik materiallardan istifadənin rolunu əsas götürürlər. Son ədəbiyyatlar kommunikativ bacarıqların formalaşmasında dilin quruluşu, forma, situativ mənası və düzgün işlənməsi əsasında şagirdlərin linqvistik, sosial-kultural, strateji və praqmatik bacarıqlarının formalaşmasını qeyd edir və nəticədə rabitəli və səlis nitqin yaranmasını vurğulayırlar. Bu yanaşmanın metodoloji əsasını da məhz nitqin ünsiyyət normalarına uyğun formalaşması və tətbiqi təşkil edir. Müasir metodiki ədəbiyyatlar məhz şagirdlərdə ünsiyyət bacarıqlarının bu prinsiplərin ardıcıl bir-birini izləməsi və yeni təlim standartlarına uyğun tədrisi əsasında formalaşmasını əsas götürür. Sonda qeyd olunan bu fikirlər tədqiqatın müddəalarına tam uyğun gəlir və tədqiqat işini dəstəkləyir.

Üçüncü yarımfəsildə *"Problem baxımından proqram və dərsliklərin təhlili"* verilmişdir. Xarici dil fənn kurikulumu konseptual sənəd kimi yalnız siniflər üzrə verilmiş təlim nəticələrinin, standartların, təlim strategiyalarının və qiymətləndirmə mexanizmlərinin tətbiqi xarakterini daşıyır. Siniflər üzrə tədris proqramları isə yalnız ümumi və işlənilməmiş xarakterə malikdir. Fənnin əsas məzmununa daxil olan struktur elementlərinin düzgün işlənməsini təmin edən metodik göstərişlərin olmaması proqram materialının tam ödənilməsini təmin etmir.[1] V-IX siniflər üzrə gündəlik ifadə və nitq etiketlərinin təhsil pilləsinin və standartların tələbinə uyğun seçilməsi, onların hansı tezliklə işlənməsi, kommunikativ nitqi yaradan müxtəlif səviyyəli nitq etiketlərinin tərtibi, ifadə vasitələrinin, aktual mövzuların, qrammatik kommunikasiya modellərinin işlənməsi qaydası üzrə uyğun proqram materialının və dərsliklərin təminatına ehtiyac vardır. Ədəbiyyatlar didaktik baxımdan xarici dil proqramlarının və dərsliklərinin bacarıqlara, məzmuna və təcrübəyə əsaslanan şəkildə üç tipdə hazırlanmasını və inteqrativ şəkildə kommunikativ bacarıqları özündə necə əks etdirən müxtəlif ölkələrin tədris proqramlarının nümunəsini təklif edir. Dərsliklərdə şifahi nitqin inkişafına verilən tələblər, şagirdyönümlü tapşırıqların məzmunu, yaradıcı çalışmaların vacibliyi vurğulanmışdır.[2] Tədris proqramlarının və dərsliklərin dilin funksional xarakterini əks etdirən konkretliyi, təlim nəticələri əsasında kommunikativ təbiətə malik olması xarici dilin metodologiyasında əhəmiyyətli rol oynayır və tədqiqatın müddəalarını özündə əks etdirir.

---

[1]The Ontario Curriculum Language. 2006. Grades 1 - 8 Queen's Printer for Ontario, 2006, p. 93-137

[2]Abbasov Ə. Şəxsiyyətyönümlü kurikulumlar əsasında yaradılan dərsliklərin xüsusiyyətləri // Kurikulum, 2008, № 4, s. 8 -12

Dördüncü yarımfəsil isə *"Məktəb təcrübəsinin öyrənilməsi"* adlanır. Bu fəsildə məktəbdə müəllim və şagirdlərin ingilis dilində ünsiyyət qurmağa maraqları, fəal iştirakı müqayisə edilmiş, metodik çatışmazlıqlar göstərilmiş, eyni zamanda anket sorğularının nəticələri təqdim edilmişdir. Müşahidə olunan dərslərdə problemlər və onların aradan qaldırılması yolları təklif edilmişdir.

Müşahidələr göstərir ki, ümumtəhsil məktəblərində V-IX sinif şagirdlərinin ingilis dilində sərbəst ünsiyyət qurmalarında çətnliklər vardır və bunun aradan götürülməsi üçün vacib yeni strategiya və mexanizmlər işlənib hazırlanmalıdır.[1]

Məktəb təcrübəsinin öyrənilməsi və təhlili üzrə aparılan araşdırmalar göstərir ki, fənn standartlarının tələbinə uyğun metod və üsulların seçilməsində uyğunsuzluq vardır, dinləyib-anlama, danışma standartlarının tələbi daha çox pozulur, oxu üzrə metodlar seçilir və kommunikativ fəaliyyətlərin tətbiqi arxa plana çəkilir, əsas fəaliyyət kimi, leksik və qrammatik tapşırıqların yerinə yetirilməsi, mətnlərin oxunub ana dilinə tərcümə edilməsi, linqvistik çalışmalar vasitəsilə mənanın anlaşılmasına üstünlük verirlər. Bu hal isə heç bir ünsiyyət mühitini yaratmır. Bəzən tapşırıqlarda cavabların seçim kimi verilməsi də şagirdlərdə düşünmə qabiliyyətini formalaşdıra bilmir. Oxu mətni üzrə suallar və cavablar, uzlaşmalar, səhv və düz cavablar üzərində düşünmək isə daha çox vaxt apardığından şagirdlərin bir-biri ilə söhbəti, dialoqu çox zəif müşahidə olunur. Digər bir çətinlik ondan ibarətdir ki, məktəblərimizdə VIII-IX siniflər arasında autentik materialların tədrisinə çox az yerilir.[2] Bütün bu çətinliklərin aradan götürülməsi üçün kommunikasiyanın əldə olunmasına istiqamətlənmiş strategiya və mexanizmlər işlənməlidir. Fəaliyyətlərin tətbiqi üzrə həm müəllim, həm də şagirdlər öz rolları haqqında kifayət qədər məlumatlı olmalı, yeni metod və üsullardan səmərəli istifadə olunmalı və sonda şagirdlərin sərbəst fəaliyyəti üzrə nəticələr dəyərləndirilməli, ünsiyyət bacarıqlarının yaradıcı modeli təqdim olunmalıdır.

Tədqiqat işinin II fəsli *"İngilis dilinin tədrisində kommunikativ bacarıqların formalaşdırılmasının metodoloji əsasları"* adlanır. Bu fəsil dörd yarımfəsildən ibarətdir.

---

[1]Казиева М.Ю. Психологические особенности речевого общения, необходимые для обучения иностранному языку // Иностранные языки в Азербайджане, 2007, № 1, с. 65-66

[2]Гусейнзаде Г.Д. Лингво-дидактический анализ речевой коммуникации на английском языке: Автореф. дис. ... докт. пед. наук. Баку, 2004, с. 58

I yarımfəsil *"Şagirdlərin danışıq fəaliyyəti zamanı yaranan problemlər və onların aradan qaldırılması istiqamətləri"* adlanır və bu yarımfəsil V-IX sinif şagirdlərinin şifahi nitqinin formalaşmasına mənfi təsir edən faktorların təhlilinə həsr olunmuşdur. Təcrübə göstərir ki, ünsiyyətin yaranmasında ən çox meydana çıxan problem əlverişli dil mühitinin olmaması, təlimin təşkilində prinsiplərin pozulması və didaktik tələblərin az gözlənilməsidir.[1] Aparılan müşahidələr bir çox sahələr üzrə problem və çatışmazlıqları müəyyən etdi və bu çətinliklərin aradan qaldırılmasında qeyd olunan metodiki istiqamətlər: kommunikativ təlimin təşkili prinsipləri, kommunikasiyada motivasiyanın rolu, qrammatik kommunikasiyanın tətbiqi, şifahi nitq bacarıqlarını formalaşdıran kommunikativ metodlar, intonasiya və lüğətin inkişafı, kommunikativ oxu və yazı fəaliyyəti və sonda ünsiyyət bacarıqlarının düzgün qiymətləndirilməsi müəyyən edildi.[2]

Buna əlavə olaraq, dilin ünsiyyətdə qazanılmasına təsir edən amillərin, xüsusuilə, təlimdə orijinal formaların tətbiqi, dərs saatlarının düzgün bölüşdürülməsi, şagird sayının düzgün müəyyən edilməsi, təlimdə müəllim və şagirdlərin rolu baxımından təhlil edərkən, bir çox metodik çatışmazlıqların olduğunu görürük.[3] İngilis dilinin kommunikativ şəkildə tədrisində lazımi metod və üsulların sadədən mürəkkəbə düzgün seçiminə, səmərəli sinifdənxaric fəaliyyətlərin planlaşdırılmasına, şagirdlərin sağlam mədəni mühitdə ünsiyyət qurmasına diqqətin artması ilə izah olunur.

İkinci yarımfəsil *"İngilis dilində V-IX sinif şagirdlərinin kommunikativ bacarıqlarının formalaşmasının tədrisi metodikası"* adlanır. Tədqiqat işində təlimdə motivasiyanın rolu izah edilərək bildirilir ki, qarşılıqlı ünsiyyət zamanı utancaqlıq, qorxu və inamsızlıq meyillərinin aradan götürülməsində onun düzgün qurulması vacibdir və məhz uyğun motivasiya davamlı ünsiyyətin formalaşmasına müsbət təsir edir. Bu baxımdan motivasiyanın seçilməsində metodoloji cəhətdən səmərəli üsullar tətbiq edilməlidir.[4] Səhvlərin düzəlişini araşdıran tədqiqatçı alimlər qrammatik səhvlərin

---

[1]Jeremy Harmer. The practice of English Language Teaching. England. Pearson education limited, 2001, p.78-112
[2]B.D. Nigendra Prasad Communicative Language Teaching in 21st Century ESL. U, 2008, 115 p.
[3]Ozsevik Z. The use of communicative language teaching (CLT): Turkish EFL teachers' perceived difficulties in implementing CLT in Turkey. Unpublished master dissertation, University of Illinois, 2010, p. 27-48
[4]Dörnyei Z. Creating a motivating classroom environment. In J. Cummins C. Davison (eds) The Handbook of English Language Teaching, 2006, p. 640-650

düzəlişində yeni yanaşmalar təqdim edir, ünsiyyət zamanı bu düzəlişlərin yerinə yetirilməsində müəllimin rolunu vurğulayır, eyni zamanda qrammatik kommunikasiya, intonasiya və lüğətin inkişafı, kommunikativ təlim fəaliyyətlərinin seçilməsini təklif edirlər.

Tədqiqatçılar dinləyib-anlama, danışıq, oxu və yazı bacarıqlarının formalaşmasına aid müasir innovativ fəaliyyətlərin tətbiqini və dil bacarıqlarının düzgün dəyərləndirilməsini mühüm hesab edirlər.[1] Kommunikativ bacarıqların qiymətləndirilməsi metodiki baxımdan izah edilmiş, qiymətləndiriləcək sahələr üzrə meyarlar müəyyən edilmişdir.

Beləliklə, V-IX siniflər üzrə kommunikativ oxu şagirdlərin həm linqvistik-leksik anlamı izah etmək üçün, eyni zamanda oxunun əsas məzmununda fikirlərin seçilməsi, ifadə olunması və məntiqi ardıcıllıqla qısa şərhini inkişaf etdirərək, şagirdlərin rabitəli nitqinin qurulmasına xidmət etməli və bu mərhələnin həyata keçməsi üçün təlimdə əlverişli imkanlar yaradılmalıdır.[2]

*"Kommunikativ çalışmaların sistemləşdirilməsi"* adlanan üçüncü yarımfəsildə məlum olur ki, V-IX sinif şagirdlərini kommunikativ fəaliyyətlərə və bir-birləri ilə ünsiyyət qurmağa, dinləməyə, məlumatlar əldə etməyə və səmərəli ünsiyyət modelini qazanmağa cəlb etmək üçün müxtəlif tipli çalışmalar tətbiq etmək lazımdır. Çalışmaların məzmununda ingilis dilinin funksional məqsədləri əsas yer tutur və təlim mühitində dinamikliyi təmin edir.

Təqdim olunan çalışmalar sistemi yaradıcılıq baxımından rəngarəng olmalı, autentik xarakter daşımalı və şagirdlərdə kommunikativ bacarıqların düzgün formalaşdırılmasına xidmət etməlidir.

Tədqiqat işinin ikinci fəslinin üçüncü yarımfəslində eksperimental təlimin təşkili və nəticələri şərh olunur.

*"Eksperimental təlimin təşkili, aparılması və nəticələri"* tədqiqatın dördüncü yarımfəslidir. Tədqiqat zamanı eksperimentin müəyyənedici, öyrədici və yoxlayıcı mərhələlərinə müraciət edilmişdir.

V-IX sinif şagirdlərinin ingilis dilinin tədrisi prosesində üzləşdiyi çətinlikləri müəyyənləşdirmək üçün ilk növbədə müəyyənedici eksperi-

---

[1]Razaei S., Mozaffari, F., & Hatef, A. Corrective feedback in SLA: classroom practice and future directions. International Journal of English Linguistics, 2011. p. 21-29

[2]Richard J.C. Developing Classroom Speaking Activities: From Theories to Practice. Journal Watch, 2006,p. 126-129

mentdən faydalandıq. Bu mərhələ zamanı aşağıdakı vəzifələrin həllini qarşıya məqsəd qoyduq: eksperimental və kontrol siniflərin seçilməsi; həmin siniflərdə şagirdlərin və müəllimlərin səviyyələrinin təxminən bərabər olmasının təmin edilməsi; tədqiqatın mövzusu baxımından siniflərin səviyyəsinin şifahi və yazılı yolla öyrənilməsi; şagirdlərin imkanlarının müəyyənləşdirilməsi; ingilis dili dərslərində kommunikativ bacarıqların formalaşmasında şagirdlərin rastlaşdıqları çətinlikləri, müəllimlərin yeni texnologiyaların tətbiqində və ingilis dilinin kommunikativ tədrisində üzləşdikləri çətinlikləri nəzərə almaqla aparılan tədrisin keyfiyyətinin səviyyəsinin müəyyənləşdirilməsi; hazırlanmış proqram modelinin, yazılı və şifahi tapşırıqların kommunikativ vərdişlərin qazanılmasında səmərəli və yararlı olduğunun yoxlanılması.

Eksperiment normal təlim şəraitində, yəni ingilis dili dərslərində, bəzi hallarda isə sinifdənxaric fəaliyyətlərdə aparılmışdır.

Eksperimentdə 475 nəfər şagird iştirak etmişdir. Onlardan 112 nəfər – V sinif, 86 nəfər – VI sinif, 92 nəfər – VII sinif, 94 nəfər – VIII sinif, 91 nəfər – IX sinif şagirdləri olmuşdur.

İlkin yoxlama anket sorğusuna əsasən həyata keçirilmişdir. Eksperiment qruplarla kontrol qrupların diaqnostik yoxlanılmasında eyni sorğu anketindən istifadə edilmişdir.

Eksperimental qruplarda dərslik və metodiki tövsiyələrdən başqa, müxtəlif tədris vəsaitləri və digər materiallardan da istifadə olunmuşdur. İngilis dilində sərbəst nitq vərdişlərini formalaşdıran müxtəlif kommunikativ fəaliyyətlər yerinə yetirilmiş, uyğun strateji vasitələr seçilmiş, tərtib edilmiş metodiki tövsiyələr və iş üsulları tətbiq edilmişdir.

Yekun olaraq tədqiqat işinin nəticələrini aşağıdakı kimi ümumiləşdirərək:

*Müəyyənedici eksperimentin nəticələri*

1. Orta ümumtəhsil məktəblərində xarici dil fənn kurikulumlarının tələbinə uyğun tədris proqramı yoxdur, yalnız illik planlara uyğun dərslər tədris olunur. Kommunikativ fəaliyyətini təmin edən leksik vahidlərin, nitq etiketlərinin və şifahi nitq praktik çalışmalarının tətbiqi mühüm hesab edilən problemlərdəndir.

2. Şagirdlərin dinləyib-anlama, danışma imkanlarını təmin edən çalışmaların və fəaliyyətlərin çatışmazlığı üzündən kommunikativ funksiyalar və vasitələr mənimsənilməmiş qalır.

3. Lüğətin, leksik vahidlərin, qrammatik materialların dərsliklərdə və proqram materiallarında qarışıq, sistemsiz verilməsi, söz və söz birləşmələrinin düzgün ölçüdə, sayda seçilməməsi, yerində işlədilməməsi də çox hallarda dil normalarının pozulmasına səbəb olur.

4. V-IX sinif şagirdlərinin istifadə etdiyi dərsliklərdə kommunikativ bacarıqların formalaşmasına aid çalışmaların azlığı müşahidə olunur.

5. Qrammatikanın kommunikasiyada düzgün tətbiq edilməməsi, dildə səlisliyin (accuracy) daha çox qorunması və rabitəliliyin (fluency) az olması kommunikativ bacarıqların formalaşmaması ilə izah edilə bilər.

6. Müəllimlər tərəfindən şagirdlərin kommunikasiyaya motivə edilməsi çox az hallarda hiss olunur. Səhvlərinin düzəldilməsində yeni üsullar demək olar ki, tətbiq edilmir, əksinə səhvlərə görə şagirdlər utancaqlıq hiss edirlər. Diqqətin daha çox mətnlərin məzmununa yönəldilməsi və dil normalarının az nəzərə alınmasıdır.

*Öyrədici eksperimentin nəticələri*

7. Şagirdlərin ingilis dilində nitqini qurarkən kommunikasiyanın düzgün formalaşmasına istiqamətləndirilmiş metodiki iş sistemi və çalışmalar kompleks şəkildə işlənib hazırlanmış, tövsiyə şəklində müəllimlərə təqdim olunmuş və təqdimatlar keçirilmişdir.

8. Eksperiment qruplarda ingilis dilindəki qrammatik qaydaların, lüğətin praktikada tədrisinə dair dərs plan nümunələri təqdim olunmuş və şagird fəaliyyətləri müşahidə olunmş, aktual mövzuların və autentik materialların seçilməsi, nitq etiketlərinin, linqvistik modellərin mətn daxilində verilməsi vacib hesab edilmişdir.

*Yoxlayıcı eksperimentin nəticələri*

9. Aparılan tədqiqatın sonunda eksperiment və kontrol qrupların göstəriciləri təhlil edilmiş, eksperimentdən əvvəl və sonrakı nəticələr eksperiment və kontrol qruplarda qarşılaşdırılmış və statistik üsulla hesablanaraq müəyyən faizlərlə cədvəllər və sütunlarla təqdim edilmiş, dinamik rəqəmlərlə əks olunmuşdur.

10.Yoxlayıcı eksperimentin nəticələri üzrə tədqiqat işinin aktuallığı və fərziyyələri öz doğruluğunu bir daha sübut etmiş və tədqiqatın nəticələri eksperiment qruplarda öz səmərəsini vermiş və sonda qiymətləndirmə vərəqlərində əks olunmuşdur.

Cədvəl 1. Müəyyənləşdirici və yoxlayıcı eksperimentin nəticələrinin müqayisəsi

| Məktəblər | Siniflər | Şagirdlərin ayı | Müəyyənedici mərhələ | | | | | | Yoxlayıcı mərhələ | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Cavabların xarakteri | | | | | | Cavabların xarakteri | | | | | |
| | | | Düzgün | % | zəif | % | cavab vermədi | % | düzgün | % | zəif | % | cavab vermədi | % |
| Nərm. 46№li məktəb | Eks. | 119 | 32 | 26,8 | 46 | 38,6 | 41 | 34,4 | 5 | 54,6 | 2 | 10,1 | 12 | 10,1 |
| | Kon. | 110 | 24 | 21,8 | 43 | 39,0 | 43 | 39,0 | 8 | 25,5 | 5 | 40,9 | 37 | 33,6 |
| Nəsimi r. 5№li məktəb | Eks. | 118 | 35 | 29,6 | 38 | 32,2 | 45 | 38,1 | 1 | 51,7 | 6 | 38,9 | 11 | 9,3 |
| | Kon. | 120 | 27 | 22,5 | 45 | 37,5 | 48 | 40,0 | 0 | 25,0 | 7 | 39,2 | 43 | 35,8 |
| Xəzər r. 26№li məktəb | Eks. | 119 | 28 | 23,5 | 39 | 32,7 | 52 | 43,6 | 9 | 49,6 | 6 | 30,3 | 24 | 20,2 |
| | Kon. | 115 | 23 | 20,0 | 35 | 30,4 | 57 | 49,5 | 2 | 27,8 | 5 | 21,7 | 58 | 50,4 |
| Biləsuvar r. 4№li məktəb | Eks. | 119 | 22 | 18,4 | 44 | 36,9 | 53 | 44,5 | 3 | 44,5 | 1 | 26,0 | 35 | 29,4 |
| | Kon. | 122 | 20 | 17,8 | 44 | 36,0 | 58 | 47,5 | 6 | 21,3 | 5 | 6,9 | 51 | 41,8 |

*Nəticə*

Aparılan tədqiqatlar aşağıdakı nəticələrə gəlməyə imkan verir:

1. Orta ümumtəhsil məktəblərində ingilis dilinin tədrisi prosesində kommunikativ bacarıqların formalaşması üzrə xarici dil fənninin tədrisi metodikası sahəsində, təhsil proqramı (kurikulumu) və dərsliklərində müəyyən mürəkkəb məsələlər mövcuddur.

2. Kommunikasiyada psixoloji xüsusiyyətləri üzrə məktəb təcrübəsinin müəyyənedici eksperimentin nəticələrinə əsasən qeyd edə bilərik ki, orta ümumtəhsil məktəblərində ingilis dilinin kommunikativ şəkildə əldə edilməsi şagirdlərin ünsiyyət zamanı utancaqlıq, səhvlərdən qorxu hiss etmələri və bunun aradan qaldırılması üçün mövcud imkanların yaradılması formalaşmamış şəkildə olur.

3. Elmi-metodiki ədəbiyyatlar kommunikativ bacarıqların formalaşmasında linqvistik, strateji, sosial-kultural və praqmatik prinsipləri nəzərə alan kommunikativ bacarıqların sistemli formalaşmasına xidmət etməsini təsvir edir; dilin linqvistik-semantik bütövlüyünü təklif edir.

4. Ünsiyyət vərdişlərini möhkəmləndirən fəaliyyət və çalışmaların tətbiqi tədris proqramlarında və dərsliklərində daha çox öz əksini tapmışdır. Yeni fənn kurikulumunun tələblərinə uyğun xarici dil proqramları olmadığından xarici dilin tədrisi metodikası işlənməmiş qalır. Dərsliklərdə kom-

munikativ çalışmalar üzərində işin metodikası şagirdlərdə səmərəli kommunikativ vərdişlərin yaradılmasına zəmin yarada bilmir.

5. Tədqiqat işi göstərdi ki, V-IX sinif şagirdləri sərbəst kommunkativ şəkildə ünsiyyət qurmağa hazır deyil. Şagirdlər hələ də audiolinqual metodun təsirindən çıxa bilmir, nitqində qrammatik qaydalara tabe olmağı üstün tutur və son nailiyyətlər hələ də qrammatik testlərin nəticələri ilə ölçülür.

6. Məktəb təcrübəsindən aydın oldu ki, ingilis dilinin tədrisində təlimin təşkili prinsiplərinə, vaxtın səmərəli təşkilinə az riayət olunması, sinifdə söhbətlərin, dialoqların, danışıqların daha çox ana dili ilə tərcüməli şəkildə olması, eləcə də siniflərin ölçüsünün, şagird sayının uyğun olmaması, təlimin orijinal formalarından istifadə olunmaması, sinifdənxaric işin təşkilində kommuniktivliyi formalaşdıran fəaliyyətlərin düzgün seçilməməsi ünsiyyəti formalaşdıra bilmir.

7. Hər bir sinif səviyyəsi üzrə sözlərin həcmi, qrammatik qaydaların seçilməsi, autentik materialların növü və nitq nümunələrini bölgüsü təsnifata bölünmüşdür. Şagirdlərlə kommunikativ qrammatika, intonasiya, lüğət və dil bacarıqları üzrə aparılacaq işlər sistemləşdirilmiş, ünsiyyət bacarıqlarının qiymətləndirilməsi mexanizmi izah olunmuşdur.

8. Kommunikativ qrammatikada punktuasiyanın düzgün işlədilməsi, şifahi nitq zamanı qrammatik qaydaların praktiki şəkildə, oyunlarda, dialoqlarda və digər fəaliyyətlərdə elipsislərdən, dolduruculardan, quyruqlardan, bəkçənellərdən, frazeoloji çanklardan yerli-yerində istifadə olunmasına nail olunması tövsiyə edildi.

9. Tədqiqat işi üzrə eksperiment və kontrol qruplar seçilmiş, qruplarda kommunikativ bacarıqları formalaşdıran fəaliyyətlər və tapşırıqların müqayisəli təhlili aparılmışdır, eksperiment qrupların irəliləyişləri qeyd olunmuşdur. Eksperimentin müəyyənedici, öyrədici və yoxlayıcı mərhələlərində müşahidə olunan çətinliklərin aradan qaldırılması, istifadə olunan üsul və vasitələrin müqayisəli təhlili, nəticələri ümumiləşdirilərək sonda təqdim olunmuşdur.

10. Aparılan tədqiqatın nəticələrinə əsasən qeyd edə bilərik ki, şagirdlərin kommunikativ bacarıqlarının formalaşdırılmasında təqdim olunan metodiki imkanlar və yaradıcı çalışmalar sistemi tədris prosesində müəllim və şagirdlərin fəaliyyətində müsbət şəkildə əks olunmuş və səmərəli nəticələr vermişdir.

Dissertasiya ilə bağlı aşağıdakı tədqiqat işləri çap olunmuşdur:

1. İbtidai siniflərdə ingilis dilindən dərs planlarının hazırlanması// Kurikulum Jurnalı, Bakı: ARTPİ 2008, № 4, s.75 – 83
2. New steps of Curriculum Design of Azerbaijan Education System // Journal of International Relation News - University of Nebraska, NE 68588-0682(402) 472-5358, 2009,p.7-9
3. İngilis dilinin tədrisində istifadə olunan təlim strategiyaları /Elm ilinə həsr olunmuş xarici dillərin tədrisinin aktual problemləri elmi konfransın materialları, Bakı: ADU,2009, s. 32 - 40
4. Xarici dil fənn kurikulumunda standartların tətbiqi /Ümummilli lider H.Əliyevin sərəncamı ilə ali məktəbə Universitet adının verilməsinin 10 illiyinə həsr olunmuş Xarici Dillərin Tədrisinin Aktual Problemləri III Respublika Elmi Konfransının materialları. Bakı: ADU, 2010,s. 30 -34
5. İngilis dilinin tədrisində istifadə olunan yeni təlim Strategiyaları // Kurikulum Jurnalı, Bakı: ARTPİ № 2 (10) 2010, s. 40-44
6. Kommunikativ bacarıqların formalaşdırılmasında qiymətləndirmənin rolu // Kurikulum Jurnalı, Bakı: ARTPİ № 2, 2012, s. 49 -56
7. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ikinci xarici dil kurikulumu - (V-XI siniflər) üzrə metodiki tövsiyə. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı: “Təhsil” Nəşriyyatı, 2012, 72 s.
8. Orta məktəb şagirdlərinin ingilis dilində kommunikativ vərdişlərə yiyələnməsində innovativ metodların tətbiqi / V Respublika Beynəlxalq Konfransı, Bakı: ADU, 2012, s. 298 -300
9. Orta məktəb şagirdlərinin ingilis dilində kommunikativ vərdişlərə yiyələnməsində innovativ metodların tətbiqi / “Təhsil sahəsində gənc nəslin təlim-tərbiyəsi üzrə işin təşkili və onun yaxşılaşdırılması istiqamətləri” mövzusunda elmi konfransı, Bakı: ARTPİ, 2012, s. 35 -39
10. İngilis dili dərslərində kommunikativ bacarıqların formalaşmasında şagirdlərdə dinləyib-anlama bacarıqlarının inkişafı yolları / “Tətbiqi Dilçiliyin müasir problemləri” mövzusunda respublika elmi konfransının materialları, Bakı: ADU, 2013, s.44 - 47
11. “Heydər Əliyev və yeni təfəkkürlü insanın tərbiyəsi” / “Müasir təhsilin aktual problemləri” H.Əliyev – 90 illik yubileyinə həsr olunmuş Respublika elmi-praktik konfransı, Bakı: ARTPİ, 2013 s.149 - 151
12. Azərbaycan Respublikası ümumtəhsil orta məktəbləri üçün 6-cı sinif ingilis dili dərsliyi. Bakı: Təhsil, 2013, 160 s.
13. Azərbaycan Respublikası ümumtəhsil orta məktəbləri üçün 6-cı sinif metodik vəsaiti. Bakı: Təhsil, 2013, 160 s.

14. Azərbaycan Respublikası ümumtəhsil orta məktəbləri üçün 6-cı sinif ingilis dili iş dəftəri. Bakı: “Təhsil” nəşriyyatı, 2013, 88 s.
15. Xarici dil fənn kurikulumlarının tətbiqində qarşıya çıxan problemlər - /Amerika Məzunlar Cəmiyyəti İctimai Birliyi, Beynəlxalq Konfransı, Bakı: AAA,2013, s. 34 -38
16. Müasir oxu bacarıqlarının qazanılması yolları /H.Əliyev – 90 illik yubileyinə həsr olunmuş Xarici dillərin aktual problemləri beynəlxalq elmi-praktiki konfransı, Bakı: ADU, 2013, s. 232 – 238
17. Fənn kurikulumu və kommunikativ bacarıqların qazanılması məsələləri // Azərbaycan Məktəbi jurnalı, Bakı, 2014, № 4 (662),s.50-55
18. İngilis dilindən Təlim materiallarının tematik planlaşdırılmasına dair. //Bakı: ARTPİ, 2014, s. 169-185
19. Ümumtəhsil məktəbləri üçün yeni tədris proqramları (kurikulumlar) üzrə təlim materiallarının planlaşdırılması – metodik vəsait. Bakı: ARTPİ, 2014. s. 52 -55
20. Ümumtəhsil məktəbləri 6-cı siniflər üçün ingilis dilindən test tapşırıqları. Bakı: TQDK, 2014,189 s.
21. Milli əxlaqi-mənəvi tərbiyənin inkişafında beynəlxalq təcrübənin rolu - /Təhsildə mənəvi-əxlaqi dəyərlər: harmonik şəxsiyyətin inkişafı Respublika elmi-praktik konfransı, Bakı: ARTPİ, 2014, s.218-221
22. Xarici dil fənn kurikulumunda kommunikativ bacarıqların formalaşmasının qlobal rolu /Xarici dillərin tədrisinin aktual problemləri mövzusunda respublika konfransı. Bakı: ADU, 2014, s. 190-193
23. Developing Communication skills through reading skills // Shtuttgart-Applied Science ORT Publishing, Germany: 2015, № 5, p. 31-33
24. İnnovative Methods of Teacher Training Policy in Education / XXI əsr müəllim hazırlığı siyasəti mövzusunda beynəlxalq elmi konfransın materialları. Qafqaz Universiteti, Bakı: 2015, s. 69-75
25. İngilis dili dərslərində qrammatikanın kommunikativ yanaşmada tədrisi // Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, Bakı: 2015, №2, s.39-43
26. İngilis dilinin tədrisində kommunikativ bacarıqların formalaşdırılmasının nəzəri və praktik məsələləri // ARTPİ Elmi Əsərləri, Bakı: 2015, № 3, s.127-131
27. İngilis dilinin tədrisində kommunikativ kompetensiyalar və onların qazanılması yolları/Azərbaycan Respublikası Təhsil Nazirliyi Gənc dokto-

rant və dissertantların XIX Respublika Elmi Konfransı. Bakı, 2015, s.59-61
28. Yeni kommunikativ yanaşmaların ingilis dilinin tədrisində tətbiqi / Tətbiqi dilçiliyin müasir problemləri-Respublika elmi praktiki konfransı materialları, Bakı: ADU, 2015, s. 303-306
29. İngilis dilində kommunikativ vərdişlərin qazanılmasında problemlər və çətinliklər // Azərbaycanda Xarici dillər Elmi metodik və ictimai publisistik jurnal, Bakı: ADU, 2015, № 3, s. 89-97
30. İngilis dilində danışıq dilinin kommunikasiyada qazanılması yolları / Dil və mədəniyyət üzrə Respublika elmi konfransı materialları, Bakı: ADU, 2015, s. 210-213
31. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ikinci xarici dil kurikulumu (V-VII siniflər) üzrə metodiki tövsiyə. Bakı: ARTPİ, Təhsil Texnologiyaları Mərkəzi, 2015, 87 s.
32. Şagirdlərin danışıq fəaliyyəti zamanı yaranan problemlər və onların aradan qaldırılması imkanları / Xarici Dillərin Tədrisinin aktual problemləri. Respublika Elmi Konfransının materialları. Bakı: ADU, 2016, s. 252-254
33. İngilis dilinin kommunikasiyada qazanılmasında qarşıya çıxan problemlər və onların aradan qaldırılması imkanları / Azərbaycan Respublikası Təhsil Nazirliyi Gənc doktorant və dissertantların XX Respublika Elmi Konfransı. Bakı, 2016, s. 154-157
34. İngilis dili dərslərində şagird nailiyyətlərinin qiymətləndirilməsinin kommunikasiyanın formalaşmasına təsiri / Şagird nailiyyətlərinin qiymətləndirilməsi: məzmun və vasitələrin yaradılması problemləri mövzusunda Beynəlxalq elmi konfransının materialları. Bakı: ARTPİ, 2016, s. 125-126
35. Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün ingilis dili (əsas xarici dil kimi) dərsliyi. Bakı: “Təhsil” nəşriyyatı, 2016, 194 s.
36. Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün ingilis dili (əsas xarici dil kimi) metodik vəsaiti. Bakı: “Təhsil” nəşriyyatı, 2016, 194 s.
37. İngilis dilində kommunikativ yanaşmanın tədris proqramlarında inkişaf etdirilməsi yolları //Dil və Ədəbiyyat elmi jurnalı, Bakı: ADU №8 2017. s. 183-189
38. Tədrisdə kommunikativ bacarıqların formalaşdırılmasına dair //Azərbaycan Məktəbi jurnalı, Bakı: 2017, № 1(667) s.85-89

39. İngilis dilində kommunikativ kompetensiyaların qazanılmasının psixoloji əsasları/Təhsildə Psixoloji xidmət: Reallıqlar, Perspektivlər. Respublika Elmi Konfransının materialları, Bakı: ADPU, 2016 (çapmay 2017) s. 66 – 73.
40. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün ingilis dili (əsas xarici dil kimi) dərsliyi–Bakı: "Təhsil" nəşriyyatı, 2017, 160 s.
41. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün ingilis dili (əsas xarici dil kimi) metodik vəsait. Bakı: "Təhsil" nəşriyyatı, 2017, 160 s.
42. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün ingilis dili (əsas xarici dil kimi) iş dəftəri. Bakı: "Təhsil" nəşriyyatı, 2017, 88 s.
43. Xarici dildə kommunikativ səriştələrin qazanılmasında proqram və dərsliklərin rolu/Azərbaycan Dillər Universitetinin yaranmasının 80 illiyinə həsr olunmuş Xarici dillərin tədrisinin aktual problemləri mövzusunda Respublika elmi-praktiki konfransı. Bakı: ADU, 2017, s. 103-105

Фарида Маши гызы Гусейнова

# ПУТИ И СПОСОБЫ ФОРМИРОВАНИЯ КОММУНИКАТИВНЫХ НАВЫКОВ В АНГЛИЙСКОМ ЯЗЫКЕ УЧАЩИХСЯ V-IX КЛАССОВ СРЕДНИХ ШКОЛ

## Резюме

Данная диссертационная работа состоит из введения, двух глав, заключения и списка использованной литературы.

Во введении обосновываются актуальность темы и научная новизна работы; определяются объект и предмет исследования, цели и задачи, её методика, теоретическая и практическая значимость, возможность использования результатов работы в процессе подготовки специалистов в области английского языка; уровень и гипотеза исследования; основные положения, представленные на защиту; апробации и структура диссертации.

В первой главе диссертации «Теоретические основы и положение коммуникативного подхода в обучении английского языка» рассматриваются характер и содержание коммуникативных навыков в английском языке, а также теоретические и психологические основы развития английской речи учащихся на материале коммуникативных подходов к обучению английскому языку. Основное внимание в исследовании уделяется поиску новых путей развития коммуникации в и вне класса на общеобразовательном уровне. В исследовательской работе изучаются общеобразовательная учебная программа по английскому языку и учебники, в которых рассматриваются некоторые вопросы формирования навыков общения.

Во второй главе диссертации «Методические основы коммуникативных навыков в обучении английскому языку» анализируются трудности, возникающие в практике развития английской речи у школьников, обучающихся на основе методов формирования коммуникативных навыков, предлагаются способы их устранения, а также предлагается специальная система упражнений для выработки навыков английской речи у учащихся V-IX классов. Здесь же описывается проведённый педагогический эксперимент и его результаты.

В заключении даются выводы, сформулированные на основе проведенного исследования.

Farida Mashi Huseynova

# THE WAYS AND METHODS OF STUDENTS' COMMUNICATION SKILLS IN THE ENGLISH LANGUAGE IN THE V-IX GRADES OF SECONDARY SCHOOLS

Summary

This dissertation consists of introduction, two chapters, conclusion and a list of used literature.

In introduction, the relevance of the topic, the scientific novelty of the work are justified and identifies object and subject goals and objectives the methodology of research, its theoretical and practical significance, presents the possibility of using the results of work in the process of training specialists in the field of English; the research level and the research hypothesis; the main provisions presented to the defence; approbation and the structure of the dissertation.

The first chapter of the study entitled "Theoretical bases of communicative approach and its condition in teaching English" deals with the nature and content of communication skills, as well as theoretical and psychological bases for the development of English speech of students on the basis of communicative approaches in teaching English. The study focuses on finding new ways of developing communication into and out of a classroom in the general education level. The research work investigates general education English language Curriculum and textbooks identifying some issues in formation of communication skills.

In the second chapter of the dissertation, "Methodological bases of communicative skills in teaching English": the difficulties that arise in the practice of English speech development of schoolchildren taught on the basis of methods of formation of communicative skills are analysed, the ways of their elimination are proposed, a special system of exercises for developing English speaking skills of students in the V-IX grades is suggested. The methodology of the work is using observations, interviews, some state documents, surveys and statistical tablets analyzing the school experience content.The pedagogical experiment and its results are described here.